# “Qəşəng oynamaq peşəkarlıq deyil”




Fotolar: Rüfət Mikayılov/ Global Media Group

## Təranə Muradova: “Mənim çıxış etmədiyim səhnə yoxdur. Amma indi elə deyil. Solo konsertlər təşkil olunmur. Axı peşəkar rəqqaslar mütləq səhnədə olmalı, daimi çıxışlar etməlidirlər. Tədbirlər çoxdur, orada çıxışlar var. Rəqqas səhnəni, tamaşaçını daim  hiss etməlidir”



XANIM AYDIN
xanimaydin@kaspi.az

Rəqs mədəniyyət, gözəllik, zövq deməkdir. Bir xalqın gözəl rəqsləri olması, onun qədim mədəniyyətinin göstəricisidir. Bu qədimliyi gələcəyə aparmaq isə peşəkarların işidir. Həmsöhbətimiz Xalq artisti, Bakı Xoreoqrafiya Akademiyasının prorektoru Təranə Muradovadır.

### “SƏHNƏDƏN GETMƏK ÇOX AĞIR İDİ”

Təranə xanım deyir ki, rəqqasəlik zəngin olmağına baxmayaraq çox çətin, səhnə ömrü çox qısa olan sənətdir: “Mən peşəkar rəqqasəlikdən danışıram. Peşəkar olmaq üçünsə Bakı Xoreoqrafiya Akademiyasının yolunu keçməlisən. Başlayanda bilməlisən ki, bu ciddi və məsuliyyətli sənətdir. “Axırıncı” sözünü sevməsəm də, son dəfə səhnəyə 50 illik yubileyimdə çıxmışam. 40 ildən sonra səhnədən getmək çox ağır idi. Amma bilirdim ki, hər şeyin öz vaxtı var. Çətin olsa da, özümü cəmlədim, səhnədə ağlamadım. Bircə bunu dedim ki, mən bu sənəti yaşatmalıyam! Səhnə bir ayrı ömür, ayrı həyatdır. Onu heç nə əvəz etmir. O ən yaxın dostum, ən yaxın sirdaşımdır.”

### “CƏMİ 300-Ə YAXIN PEŞƏKAR RƏQQASƏ VAR”

Təranə xanım Akademiyadakı fəaliyyətindən danışdı: “Hazırda çalışdığım sənət ocağı 92 ildən sonra, 2014-cü ildən Prezident İlham Əliyevin sərəncamı ilə Akademiya olub. Bu, mədəniyyətimiz üçün böyük addım idi. Burada tək tədrislə yox, elmi işlərlə də məşğuluq. Bir çox milli rəqslərimizi düşmənlərimiz mənimsəməyə cəhd göstərir. Bu, həm də bizim təqsirimizdir. Vaxtında onları nota alıb kitaba salmamışıq. Akademiya olaraq bu cür ciddi işlər aparırıq. Tədris proqramına bütün milli rəqslərimizi daxil etmişik. Müəyyən çətinliklərimiz var, onları da aradan qaldırmağa çalışırıq. Bu gün Akademiyada peşəkar müəllim, ustad, baletmeysterlər çox azdır. Ümumiyyətlə, araşdırmışıq, ölkədə cəmi 300-ə yaxın peşəkar rəqqasə var”.

“Bu gün hər əlini qaldırıb oynayan deyir “rəqqasəyəm”. Xeyr, peşəkar rəqqasə olmaq üçün onun tədrisini keçmək lazımdır”, - deyir Xalq artistimiz: “Bu yolu keçməyən özünə peşəkar deyə bilməz. Uşaqlıqdan özfəaliyyət dərnəyində oynayanlar da deyir qəşəng oynayıram, peşəkaram. Qəşəng oynamaq da peşəkarlıq deyil. Çalışıram ki, özfəaliyyət dərnəklərində peşəkarlar dərs desin. Uşaqlar orada da peşəkar rəqqasədən dərs alsınlar”.



### “XALQIN ZÖVQÜNÜ KORLAMAQ OLMAZ”

Xalq artisti bu sahədəki digər problemi də dilə gətirdi: “Əksər restoranlarda “rəqqasələr” rəqsləri də, geyimləri də bərbad günə qoyur. “Naz eləmə” rəqsinə Əlibaba Abdullayev quruluş verib. Onu toyda “aşgətirmə” mərasimində necə gəldi oynayırlar. Həmçinin “Nəlbəki”, “İnnabı”, “Turacı” və s. rəqsləri misal çəkmək olar. O vaxt Əlibaba müəllim regionları gəzib bu rəqsləri toplayıb, quruluş verib. Dəfələrlə müraciət etmişəm, demişəm ki, olmaz bu rəqsləri bu cür korlamaq. Bu bizim tariximizdir. Xalqın zövqünü korlamaq olmaz”.

### “HƏR DƏFƏ PUL FİKİRLƏŞƏN ADAM YARADICI OLA BİLMƏZ”

“Xoreoqrafiya bizdə indi bir qədər zəifdir”, - deyir Təranə xanım: “Çalışırıq bu boşluqları aradan qaldıraq. İnsanlar bu gün mədəniyyətə, rəqsə kommersiya kimi baxırlar. Hər dəfə pul fikirləşən adam yaradıcı ola bilməz. Rəqs incə sənətdir. Hazırda Akademiyaya axın azdır. Bunun da müxtəlif səbəbləri var. Rəqqasələr əsasən 40 yaşında sənətlə vidalaşmalı olur. Bundan sonra təqaüd yaşına qədər boşluq qalır. Axı hamı müəllim, Xalq və ya Əməkdar artist ola bilməz. Bəs təqaüd alana qədər nəylə dolansın, nə işlə məşğul olsunlar? Valideynlər bunu düşünüb, qoymurlar uşaqları bu sənətə. Bundan başqa, bizim dövrümüzdə solo konsertlərlə bütün dünyanı gəzirdik. Mənim çıxış etmədiyim səhnə yoxdur. Amma indi elə deyil. Solo konsertlər təşkil olunmur. Axı peşəkar rəqqaslar mütləq səhnədə olmalı, daimi çıxışlar etməlidirlər. Tədbirlər çoxdur, orada çıxışlar var. Rəqqas səhnəni, tamaşaçını daim  hiss etməlidir”.

## GÖZLƏNİLMƏZ “XALQ ARTİSTİ” ADININ SEVİNCİ




Təranə xanım birbaşa Xalq artisti adı alan sənətkardır: “Uşaqlıqdan Maya Plisetskayanı sevmişəm, sənətə sevgim də ondan başlayıb. 1998-ci ilin mayında Maya xanım Bakıya gəlmişdi. Onu aeroportda qarşıladıq, axşam isə indiki Heydər Əliyev sarayında tədbir idi. Orada mənə dedilər ki, sən Xalq artisti adına layiq görülmüsən. İnanmadım, dedim, Əməkdar artistdir yəqin ki. Axşam konsertdən sonra evə gəldim. Mətbəxdə yemək hazırlayırdım. Gecə 12 xəbərləri efirə gedirdi. Siyahı oxunmağa başlayanda bir əlimdə qab, bir əlimdə qaşıq mətbəxdən otağa qaçdım. Adımı eşidəndə birinci Allahıma şükür elədim. Sonra da sevincimdən qışqırmağa başladım. Mən çox xoşbəxt sənətkaram. Allah Heydər Əliyevə rəhmət eləsin. O mənə böyük dəyər verdi. Başqa ölkələrdən qonaq gələndə məni dəvət edir, həmin ölkələrin xalq rəqslərini ifa edirdim. Heydər Əliyev deyirdi ki, Təranə Muradova Azərbaycanın Maya Plisetskayasıdır. Bu mənim üçün böyük bir fəxr idi. Kamera orkestri ilə milli orkestrin bir yerdə “Uzundərə” ifasını dinləyəndə Polad Bülbüloğluna dedi ki, buna rəqs də lazımdır, Tərənəyə deyin, düzəltsin. Bir günə o rəqsi qurdum. O biri gün “Gülüstan” sarayında rəqsi ifa etdim. Çox bəyənmişdi. Bu rəqslə bütün dünyanı gəzdim”.

### “HƏMİŞƏ DÜZÜNÜ DEMİŞƏM”

Həm də hüquqşünas olan rəqqasəmiz çox çalışqan, emosional, düzgünlüyü sevən adam olduğunu deyir: “Hüquqşünaslıq anam və həyat yoldaşımın arzusu idi. Yoldaşım deyirdi ki, rəqsdən getsən işləməyə, məşğul olmağa bir işin olsun. Bundan ötrü çox çalışırdı. Mən bu arzunu həyata keçirdim. Özüm də düzgünlüyü, haqqı sevmişəm deyə, bu ixtisasa yiyələndim”.

### “GƏLƏCƏYİMİZ ÜÇÜN QORXURAM”

“Bəzən baxıram ki, dünyasını dəyişmiş bir sənətkarın arxasınca çox pis şeylər yazırlar, şəxsi həyatında qaranlıq məqamlar axtarırlar. Bu məni çox narahat edir. Bundan başqa, yeni nəsil gəlib - əlbəttə hamını demirəm - bəstəkarları, şairləri, rəssamları tanımır. Himnimizin müəlliflərini tanımır. Tarixini bilməyən xalqın gələcəyi də olmaz. Mən gələcəyimiz üçün qorxuram. Mədəniyyətimizi möhkəm tutmalıyıq ki, siyasətimizlə qoşa addımlasın”.

